


Artıq neçə illərdir “Oğuz eli” qəzetinin görkəmli ədəbi simaların yaradıcılıq yoluna həsr etdiyi ayrıca buraxılışları ictimai-ədəbi mühitdə böyük maraq və sevgi ilə izlənilir. Bunun ən böyük dəyəri ondadır ki, oxucu o şəxsiyyətin yaşadığı dövr də daxil olmaqla, mühitin insanlara, onun mədəniyyətinə, ədəbiyyatına, ümumən gerçəkliklərə təsirini öyrənir, duyur və təsəvvüründə canlandırır. Burda qədim və orta əsrlərdən başlamış, çağdaş dövrün yazıçı, şair, ədəbiyyatşünasları, görkəmli maarifpərvər şəxsiyyətləri yığcam formada, müxtəlif prizmalardan və baxış bucağından yeni üslubda təqdim olunur. Doğrudur, bu şəxsiyyətlərin həyat yolu, yaradıcılığı, əsərlərinin ideyası və bədii siqlətinin ədəbiyyatşünaslıq elmində öyrənilməsinə XIX əsrin sonları və bütövlükdə XX əsrdə başlanılmış və geniş təqdim olunmuşdur. Bu ədəbi ənənə bu gün də, həm də yeni məndəricə ilə davam etdirilir. Bu ayrıca buraxılışlarda ilkin məqsəd də həmin tədqiqat əsərlərinə, səhih məxəzlərə böyük dəyər verməklə oxucuların, gənc ədəbi qüvvələrin, tədqiqatçıların yaddaşına işıq salmaqdır. Başqa bir tərəfdən, bu araşdırma yazıların müəlliflərinə ədəbiyyatımıza xidmətləri fonunda ehtiram göstərmək, onları hər gələn yeni nəslə tanıtmaq, sevdirməkdir. Bütün bunlara yekun olaraq, “Oğuz eli”nin belə bir yığcam formada (əslində hər çiçəkdən bir ləçək timsalında) ədəbi təqdimatları olduqca təqdirəlayiqdir. Baş redaktor yazıçı Azər Abdulla bu ideyanın müəllifi, yaradıcısı, istiqamətvericisi olmaqla hər dəfə ortaya yeni bir ədəbi məhsul—xüsusi buraxılış qoyur.

Düşünürəm ki, Azərbaycanın dünyaşöhrətli filosof şairi Nizami Gəncəvinin yaradıcılıq yoluna həsr olunmuş bu xüsusi buraxılış, maddi varlıq onunla tanış olan hər bir Azərbaycan vətəndaşında məmnunluq, razılıq hissi doğurur. Bəzən böyük ideya və mətləbin lakonik şəkildə belə, təqdim olunması, insanda xoş təəssürat, sevgi və qəhrəmana bağlılıq yaradır. Haqqında bəhs etdiyimiz “Nizami Gəncəvi” xüsusi buraxılışda da bu qəbildəndir. Üzqabığında rəssam Q.Xalıqovun 1940-cı ildə çəkdiyi və artıq neçə onilliklərdir dünyaca məşhur olan portreti və şairin İlahi eşqin ali tərifini verən

*Eşqdir mehrabı uca göylərin,*
*Eşqsiz, ey dünya, nədir dəyərin?* misraları ilə Nizaminin sənət dünyasına qapı açır. Şairin ədəbi irsini tədqiq və təqdir edən ədəbiyyat adamlarının müxtəlif vaxtlarda qələmə aldıqları əsərlərindən nümunələri həyəcansız oxumaq olmur. Çünki Nizaminin əsərləri ictimai-siyasi məzmunu, fəlsəfi baxışları, nəsihətamiz, müdrik fikirləri, həyat idealları baxımından həmişəyaşardır, əbədidir, müasirdir, aktualdır.

N.Gəncəvinin əsərlərinin aparıcı xətti olan milli-bəşəri ideya, insanın mənəvi dünyası, bir filosof-alim-şairin həyat gerçəkliklərinin müşahidəsi, nəzəri baxışları ilə işləndiyindən o, əbədi olan düşüncənin zaman və məkan baxımından fövqündə dayana bilmişdir. Elə buna görədir ki, onun əsərlərində milli düşüncə, dünyəvi dəyərlər, bəşəri amallar hələ ötən əsrin əvvəllərindən öyrənilməyə başlanmışdır. Elə bu səbəbdən də N.Gəncəvi kimi filosof şairin dünya xalqlarının ədəbiyyatşünaslıq tarixində özünəməxsus yeri olması, görkəmli alimlərin elmi-nəzəri baxışlarının təqdimi tamamilə təbii bir ədəbi prosesdir. Görkəmli rus alimi, şərqşünas Bertels Yevgeni Eduardoviçin (1890-1957) “Nizamidə türkçülük” əsəri ilə ilk səhifənin açılması Nizamiyə maraq və məhəbbətin dünyəviliyi ilə diqqəti cəlb edir. Mətn boyunca şairin əsərlərinə müxtəlif vaxtlarda çəkilmiş illüstrasiyalar əsərin ideya-bədii təsirini artırmaqla yanaşı, həmin rəsmlərin hansı sənətkara məxsus olması, onların Nizaminin sənətinə ehtiramını yada salır. Təbii ki, bu yığcam təqdimatda məqsəd əsərlərə münasibətimizi bildirmək deyil, dahi şairin irsinə böyük tədqiqatçıların, ədəbiyyat-sənət adamlarının nəzəri görüşlərini, ədəbi yanaşmalarını xatırlatmaq, təqdim etməkdir. Daha doğrusu, Baş redaktor Nizami Gəncəvini düşünülmüş yeni formada sənətkarların gözü ilə təqdim etmişdir.

Məlumdur ki, hər bir xalqın fikir adamı, böyük şəxsiyyəti ilk olaraq o xalqın aydınları tərəfindən tədqiq olunur, öyrənilir. Bu baxımdan Azərbaycan ədəbiyyatşünaslıq elminin, tənqidinin nəhəng simalarından olan Mikayıl Rəfili, Məmməd Cəfər, Həmid Araslı, Yaşar Qarayev, Nüşabə Araslı, Əkbər Ağayev, Rüstəm Əliyev, Mirzə İbrahimov, Azadə Rüstəmova, İsa Həbibbəyli, Teymur Kərimli, Zümrüd Quluzadə və bir çox ədəbiyyat nəzəriyyəçilərinin Nizami yaradıcılığına, onun ayrı-ayrı əsərlərinin tədqiq-təhlilinə həsr etdikləri əsərlərlə yenidən, yaxud ilk dəfə tanış olmağımız fikrimizi təsdiq edir. Eləcə də yaşlı nəslin nümayəndələrindən olan Anar, Elçinin və sonrakı ədəbi qüvvələrin Nizami Gəncəvinin sənət aləminə baxışlarını klassik irsimizə böyük məhəbbət və ehtiramın ifadəsi kimi qəbul etmək doğru olar. Həm də Nizaminin yaradıcılıq hikmətindən, həyata müdrik yanaşmasından bəhrələnmək, xeyirxahlıq, humanistlik, nəciblik hisslərinin mahiyyətini dərk etmək, özündə bu duyğuları aşılamaq, kamilləşmək, bu dahi şairə əbədi marağı zəruri edir. Buraxılışda işıqlandırılan məqalələr, böyük əsərlərdən parçalar da məhz bu fikirlərin ifadəsinə söykənir. Təbii ki, bu maraqlı, nəzəri görüşlərin sırasında Nizaminin əsərlərindən parçaların verilməsi ayrıca nəşri oxunaqlı edir. Eləcə də ədəbiyyatımızın, mətbuatımızın başlıca meyarı olan maarifçiliyin geniş intişarını şərtləndirir. Nizaminin hər kəlməsi, hər sözü bir hikmətdir, nəsihətdir.

*İlantək dikbaşlı gəzmə, ey insan!*
*Aşacaq dünyanın seli başından.*
*Yeddi başlı olsa, əjdəhalartək,*
*Onun yeddisi də yerə düşəcək.*
*Çox da yüksəkliyə ucalma ki, sən*
*Torpağa düşəndə inciməyəsən.*
*Nə qədər alçaqdan yıxılsa adam*
*O qədər ağrısı az olur müdam...*

Burada bəzi yazıların başlıqlarına diqqəti cəlb etməyi məqsədəuyğun sayırıq: “Nizami Gəncəvi dövründə Azərbaycanda siyasi-ictimai vəziyyət və ədəbi mühit”, “Nizami və Mövlanə”, “Özbək elmi-ədəbi fikrinin Nizami Gəncəvi səhifəsi”, “Nizami poeziyası təsviri sənətdə”, “Nizami Gəncəvinin milli və ədəbi kimliyinə Rəsulzadə baxışı” və bu sıradan bir çox əsərlər dahi şairin yaradıcılığının davamlı olaraq müxtəlif aspektlərdən və yanaşmalardan öyrənildiyini göstərir. Elə “Oğuz eli”nin ayrıca buraxılışlarından olan “Nizami Gəncəvi” də bu işıqlı amala istiqamət verən uğurlu işlərdən hesab edilməlidir.

**Şəfəq NASİR,**
**“Respublika”.**